**Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibinin təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

1. Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi aşağıdakı heyətdə **təsdiq edilsin:**[1]

**Komissiyanın sədri**

| | |
|---|---|
| *Sahib **Məmmədov***[2] | - *Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini* |

**Komissiyanın üzvləri:**

| | |
|---|---|
| ~~*Natiq **Əliyev***~~[3] | ~~*- Azərbaycan Respublikasının energetika naziri*~~[4] |
| *Dövlətxan **Dövlətxanov*** | - *Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini* |
| Xələf **Xələfov** | - Azərbaycan Respublikası xarici işlər nazirinin müavini |
| Musa **Pənahov** | - Azərbaycan Respublikası nəqliyyat nazirinin müavini |
| ~~*Niyazi **Səfərov***~~ | ~~*- Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini*~~[5] |
| Sevda **Məmmədəliyeva** | - Azərbaycan Respublikası mədəniyyət və turizm nazirinin müavini |
| *Firudin **Qurbanov*** | - Azərbaycan Respublikası təhsil nazirinin müavini |
| Elsevər **Ağayev** | - Azərbaycan Respublikası səhiyyə nazirinin müavini |
| ~~*İntiqam **Babayev***~~ | ~~*- Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini*~~ |
| *İbrahim **Quliyev*** | - *Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti* |
| Kamal **İsmayılzadə** | - Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının MDB ölkələri ilə iqtisadi əlaqələr şöbəsinin müdiri |
| *Sultan **Qasımov*** | - Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının Baş konsulu |

2. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyasının Sankt-Peterburq Hökuməti arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın Azərbaycan Respublikası tərəfindən tərkibi barədə Rusiya Federasiyası tərəfinə müvafiq bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 15 yanvar 2010-cu il
684

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**


1. 8 fevral 2012-ci il tarixli **2014** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 122**)
2. 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**)
3. 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**)
4. 16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** )
5. 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**)


**SƏRƏNCAMA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

[1] 8 fevral 2012-ci il tarixli **2014** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Azərbaycan" qəzeti, 14 fevral 2012-ci il, 35, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012-ci il, 02, maddə 122**) ilə 1-ci hissəsində "**Elmar Qasımov - Azərbaycan Respublikası təhsil nazirinin müavini**" sözləri "**Qulu Novruzov - Azərbaycan Respublikası təhsil nazirinin müavini** " sözləri ilə əvəz edilmişdir.

[2] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsinin **"Yaqub Eyyubov – Azərbaycan Respublikası Baş nazirinin birinci müavini**" sözləri "**Sahib Məmmədov - Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini** " sözləri ilə, "**Abbas Ələsgərov – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** " sözləri "**Dövlətxan Dövlətxanov – Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin müavini**" sözləri ilə, "**Qulu Novruzov**" sözləri "**Firudin Qurbanov**" sözləri ilə, **"Arif Həşimov – Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının birinci vitse-prezidenti** " sözləri "**İbrahim Quliyev – Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti**" sözləri ilə və "**Qüdsi Osmanov**" sözləri "**Sultan Qasımov**" sözləri ilə əvəz edilmişdir.

[3] 07 sentyabr 2016-cı il tarixli **2321** nömrəli Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (**"Respublika" qəzeti, 09 sentyabr 2016-cı il, 198, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 9, maddə 1518**) ilə 1-ci hissəsindən "**Natiq Əliyev – Azərbaycan Respublikasının energetika naziri**" sözləri, "**Niyazi Səfərov – Azərbaycan Respublikası iqtisadiyyat və sənaye nazirinin müavini** " sözləri və "**İntiqam Babayev – Azərbaycan Respublikası gənclər və idman nazirinin müavini**" sözləri çıxarılmışdır.

[4] 10 fevral 2014-cü il tarixli **105** nömrəli Azərbaycan Respublikasının Fərmanı (**"Respublika" qəzeti, 12 fevral 2014-cü il, 30 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 2, maddə 112**) ilə 1-ci hissəsində "**sənaye və energetika naziri** " sözləri "**energetika naziri**" sözləri ilə əvəz edilmişdir.

[5] 27 iyun 2014-cü il tarixli **194** nömrəli Azərbaycan Respublikasının Prezidentinin Fərmanı (**"Azərbaycan" qəzeti 29 iyun 2014-cü il, 136, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 6, maddə 644**) ilə 1-ci hissəsində "**iqtisadi inkişaf**" sözləri "**iqtisadiyyat və sənaye**" sözləri ilə əvəz edilmişdir.

16 avqust 2016-cı il tarixli **1023** nömrəli Azərbaycan Respublikası Prezidentinin Fərmanı (**"Respublika" qəzeti, 17 avqust 2016-cı il, 178, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016-cı il, 8, maddə 1384** ) ilə 1-ci hissədən "**və sənaye**" sözləri çıxarılmışdır.